# Vətən müharibəsi iştirakçılarına medallar təqdim edilib



Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun müvafiq sərəncamına əsasən, Vətən müharibəsində göstərdikləri igidliyə görə təltif edilmiş Qəbələ rayonundan olan müharibə iştirakçılarına medalların təqdim olunması ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə Vətən müharibəsi zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş rayonumuzdan olan vətən müharibəsi iştirakçılarına medallar təqdim olunmuşdur. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsinin, idarə, müəssisə, təşkilatların nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxış edənlər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən, qəhrəmanlıqla döyüşən əsgərlərimizin şücaətindən danışmış, medala layiq görülmüş müharibə iştirakçılarını təbrik edərək, şəhidlərə Allahdan rəhmət, onların valideynlərinə səbr diləmiş, qazilərə can sağlığı arzulamışlar. Müharibə iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Şəhidlər ünvansızdır

Daxili Qoşunların hərbi qulluqçuları da 1992-1994-cü illərdə baş verən I Qarabağ müharibəsində və 2020-ci ilin Vətən Müharibəsində savaşmışdılar.

I Qarabağ Müharibəsi zamanı Ağdam, Ağdərə və Füzuli rayonlarının yaşayış məntəqələrinin azad olunmasında Daxili Qoşunların Ağdam alayının şəxsi heyətinin xüsusi rolu olmuşdur. 1992-1994-cü illərdə ümumi olaraq Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətindən 680 nəfər şəhid olmuşdur, 5 nəfər itkin düşmüş, 1177 nəfər isə yaralanmışdır. 8-i ölümündən sonra olmaqla 9 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Vətən Müharibəsi zamanı isə Daxili Qoşunların şəxsi heyəti Murov zirvəsinin, həmçinin, Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 44 gün ərzində ümumi olaraq Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətindən 66 nəfər şəhid olmuş, 346 nəfər isə yaralanmışdır. 1-i ölümündən sonra olmaqla isə 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdür.

Daxili Qoşunların hazırda Azərbaycan ərazisində beş şəhərdə və doqquz rayonda hərbi hissələri mövcuddur. Həmçinin Daxili Qoşunların xüsusi təyinatlı hərbi qulluqçulardan (əsasən gizirlərdən və zabitlərdən) ibarət xüsusi təyinatlı dəstələri mövcuddur. Hazırda ümumi olaraq Daxili Qoşunların 9 Xüsusi Təyinatlı Dəstəsi vardır.

Daxili Qoşunların Qəbələ rayonunda olan hərbi hissəsinin vətənpərvərləri Vətən Müharibəsində şücaətlə döyüşmüşlər. Onlardan 2 şəhidimizi oxucularımıza tanıtmaq istərdik.

Həsənli Seymur Qələndər oğlu 1993-cü il noyabrın 9-da Yevlax rayonunda anadan olmuşdur. O, 5 iyul 2018-ci il tarixindən "N" saylı hərbi hissənin AYPT xüsusi təyinatlı qrupunda pulemyotçu vəzifəsində xidmət edirdi.

2020-ci il 27 sentyabr tarixindən etibarən başlayan Vətən Müharibəsi zamanı torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda gedən döyüş əməliyyatlarına qatılmışdır. Füzuli rayonu Seyidmahmudlu kəndi uğrunda gedən döyüşlərdə xüsusi şücaət göstərən Həsənli Seymur 9 noyabr 2020-ci ildə Şuşa şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən baş çavuş Seymur Qələndər Oğlu Həsənli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", medalları ilə təltif olunmuşdur. Şəhidimiz Yevlax rayonunda Şəhidlər Xiyabanında dəfn edilmişdir.



Şəhid Seymur Həsənli.



Şəhid Fərid Hüseynov.

Baş Çavuş Hüseynov Fərid Fətəli oğlu 1994-cü il iyun ayının 23-də Cəlilabad rayonunun Bəcravan kəndində anadan olmuşdur. 2019-cu il 12 sentyabr tarixində xüsusi təyinatlı dəstədə 2-ci xüsusi həmlə qrupunun 2-ci yarımqrup komandiri vəzifəsində xidmət edirdi.

2020-ci il 27 sentyabr tarixindən etibarən başlayan Vətən Müharibəsi zamanı torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda gedən döyüş əməliyyatlarına qatılan Hüseynov Fərid Füzuli rayonunun Seyidmahmudlu kəndi uğrunda gedən döyüşlərdə xüsusi şücaət göstərmişdir. 10 noyabr 2020-ci il tarixində Şuşa şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən baş çavuş Hüseynov Fərid Fətəli oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Şəhidimiz Cəlilabad rayon Bəcravan kənd məzarlığında dəfn edilmişdir. Allah şəhidlərimizə rəhmət eləsin!

# 26 iyun – Silahlı Qüvvələr günü

Hərb tariximizin şanlı səhifəsi sayılan 104 illiyini təntənə ilə qeyd etdiyimiz Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması, ordumuzun nizami ordu kimi formalaşması və hərbi quruculuq məsələlərinin prioritet məsələ kimi irəli sürülməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin bu istiqamətdə atdığı cəsarətli addımların nəticəsidir.

Ulu öndərin siyasi kursunu ordu quruculuğu sahəsində uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sayəsində bu gün ordumuz dünya orduları ilə müqayisə ediləcək səviyyəyə çatdırılıb. Bu hər birimizi sevindirir və qürurlandırır. Ali Baş Komandan cənab İlham Əliyevin göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir ki, ölkəmizin müdafiə qabiliyyəti gündən-günə artaraq, xalq, dövlət, ordu birliyi monolit birliyə çevrilib.

Ulu öndər Heydər Əliyevin varisi Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanın bütün torpaqları işğal altından azad olunub. Heydər Əliyevin davamçısı olan İlham Əliyev ata vəsiyyətini bu gün layiqincə yerinə yetirir. Qürurverici haldır ki, Azərbaycan Ordusu öz gücünü döyüş meydanında göstərdi. Müzəffər ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu hərbi əməliyyatlar apararaq 44 gün ərzində Ermənistanın silahlı qüvvələrini darmadağın etdi. Bu 44 günlük müharibənin sonunda düşmənin məğlub olaraq qarşımızda diz çökməsi və təslim olması xalqımızın tarixi zəfəridir.

Yaranmasının 104-cü ildönümündə Azərbaycan Silahlı Qüvvələrinin hər bir nümayəndəsi bu günü qalib, müzəffər, şanlı ordunun əsgər və zabitləri kimi qeyd edir. Vətən müharibəsində tətbiq olunan hərbi strategiya və taktikalar dünyanın ən güclü ordularına malik dövlətlər tərəfindən də maraqla qarşılanıb və Ordumuzun 44 günlük müharibə təcrübəsi hərbi mərkəzlər, hətta NATO səviyyəsində öyrənilir.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Səhiyyə işçilərinin peşə bayramı

17 iyun 2022-ci il tarixində Qəbələdə tibb işçilərinin peşə bayramı qeyd edilmişdir. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin, daha sonra görkəmli oftalmoloq - alim Zərifə xanım Əliyevanın abidələrini ziyarət edərək önünə gül dəstələri qoymuş, onların xatirəsini dərin ehtiramla yad etmişlər. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsin direktoru Sabir Bayramov ölkə başçısı cənab İlham Əliyevin səhiyyə işçilərinə göstərdiyi diqqət və qayğıdan, bu qayğı nəticəsində son illər respublikamızda, eləcə də Qəbələ rayonunda səhiyyənin inkişafından, göstərilən tibbi xidmətin səviyyəsinin yüksəlməsindən danışmışdır. Çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova Azərbaycanın səhiyyə tarixinin inkişaf mərhələsini ulu öndər Heydər Əliyevin adı ilə əlaqələndirərək, hər sahədə olduğu kimi, səhiyyə sistemində də müsbət dəyişikliklərin baş verdiyini, son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə yeni-yeni səhiyyə və sağlamlıq ocaqlarının tikintisinə diqqətin artırıldığını, bu istiqamətdə müvafiq dövlət proqramlarının uğurla həyata keçirildiyini qeyd edərək, koronavirus (COVİD-19) pandemiyası, eləcə də Vətən müharibəsi dövründə göstərdikləri fədakarlığa görə tibb işçilərinə minnətdarlığını bildirərək, onları peşə bayramları münasibətilə təbrik etmişdir. Tədbirdə çıxış edən tibb işçiləri öz işlərini daha yüksək səviyyədə quracaqlarını, əhalinin sağlamlığı üçün əllərindən gələni əsirgəməyəcəklərini bildirərək, ölkə rəhbərliyinə Qəbələ səhiyyəsinə göstərilən xüsusi diqqət və qayğıya görə dərin minnətdarlıqlarını ifadə etmişlər. Sonda fəaliyyətində fərqlənən bir qrup tibb işçisinə rayon icra hakimiyyətinin Fəxri fərmanı təqdim edilmişdir.



# Asfalt örtüyü çəkilmişdir

Torpaqlarımızın ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə diqqət və qayğı daim nəzarətdə saxlanılır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Bu cür tədbirlərin davamı olaraq Qəbələnin Tüntül kəndində Vətən müharibəsi zamanı şəhid olmuş Atakişiyev Rüstəm Zahid oğlunun adını daşıyan küçəyə və şəhidin xatirəsinə ucaldılmış "Bulaq Kompleksinin" ətrafına yeni asfalt örtüyü çəkilmişdir.



◊ ◊

Şəhidlərimiz heç vaxt unudulmur. Bu münasibətlə Daşca kənd sakini Qəribov Namiq İmaməddin oğlunun şəxsi vəsaiti hesabına Birinci Qarabağ Müharibəsi şəhidləri Fəxrəddin İsrafilov, Faiq Həbibov, Elşən Məmmədov, Şirvan Məmmədovun xatirəsini əbədiləşdirmək məqsədilə bulaq kompleksi inşa edilmişdir.

◊ ◊

